# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Tahir Budaqov ilə Tun Vathana arasında görüş keçirilib**



4


№ 046 (7456)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

19 iyun 2026-cı il.
Qiyməti 1 manat


## Azərbaycan regional və qlobal səviyyədə mühüm iştirakçıya çevrilib





2

*Prezident İlham Əliyevin iştirakı ilə Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimi keçirilib*

# Barıt çəlləyi üzərində memorandum...



5

"Azərbaycan mediası yeni inkişaf dövrünü yaşayır"



5

**İlon Mask bəşəriyyət tarixində ilk trilyonçu necə oldu?**



7

**Müstəqilliyimizin memarı**



7

**Bazar səbətində sağlam qidalanma**



8

**Şamil Ayrım: "Bu yeni mərhələnin əsasını qoyan sənəddir"**



***İyunun 18-də Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Dövlətimizin başçısı tədbirdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında diqqətə çatdırıb ki, Azərbaycan ikinci dəfədir ki, İllik Toplantıya ev sahibliyi edir və bu, həmçinin sıx əlaqələrimizi, əməkdaşlıq səviyyəsini və birgə fəaliyyətin miqyasını aydın şəkildə göstərir. 2010-cu ili çox yaxşı xatırlayıram. O vaxt biz ilk dəfə toplantıya ev sahibliyi edən ölkə idik.***




# Azərbaycan regional və qlobal səviyyədə mühüm iştirakçıya çevrilib

*Prezident İlham Əliyevin iştirakı ilə Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimi keçirilib*

Dövlətimizin başçısı qeyd edib ki, həmin İllik Toplantı Qrup ilə tərəfdaşlığımıza, eləcə də iqtisadiyyatı şaxələndirmək üçün Azərbaycanın həyata keçirdiyi islahatlara, enerji sektorundan asılılığı azaltmağa güclü təkan verdi. O vaxtdan etibarən Azərbaycanda və ətrafda çox dəyişikliklər baş verdi. Dəyişməyən yeganə məsələ Azərbaycanın sabit və uğurlu inkişafı oldu.

"Bu, milli maraqlara əsaslanan, qlobal səhnədə bütün iştirakçılarla yaxşı münasibətlərin qurulmasına, uğurlu inkişafımıza qəti sadiqliyimizə söykənən siyasətimizin təzahürüdür. Uğurlu inkişaf bir çox meyara əsaslanır. Azərbaycan cəmi 35 ildir ki, müstəqildir. Müharibə, işğal, humanitar fəlakət, vətəndaş müharibəsi və digər çətinliklərlə səciyyələnən ilk iki il istisna etməklə, qalan dövr ölkənin sabit inkişafı ilə yadda qaldı. Bu isə hər hansı ölkənin uğuru üçün əsas ilkin şərtlərdən biridir. Sabitlik pozulduqda biz inkişaf haqqında heç danışa bilmərik. Beləliklə, sabitlik, - yəni bu gün Azərbaycanın reallığını təşkil edən siyasi, iqtisadi və sosial sabitlik, - nəinki inkişafımızın əsas meyarıdır, o cümlədən regional inkişaf göstəricisidir. Çünki Azərbaycan regional və qlobal səviyyədə güclü əlaqələr sayəsində bir çox aspektlərdə artıq mühüm iştirakçıya çevrilib.

Müstəqil xarici siyasətimiz beynəlxalq ictimaiyyətin güclü dəstəyini qazanıb. Dostlarımızın sayı ilbəil artır. Beynəlxalq ictimaiyyətin verdiyi dəstək çox nümunəvi anlarda öz əksini tapır. Məsələn, namizədliyimiz müxtəlif təsisatlar üçün namizədlər siyahısında var idi və biz tam mütləq dəstəyi qazandıq. Bu hal bir neçə il əvvəl BMT-nin Təhlükəsizlik Şurasına namizəd olduğumuz zaman müşahidə edildi. O vaxt biz 155 ölkənin dəstəyini qazandıq".

Dövlətimizin başçısı qeyd edib ki, çox müsbət sərmayə siyasəti müxtəlif sahələrə, o cümlədən enerji sahəsinə, Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən, Xəzərdə hasil olunan qazın Avropa bazarlarına çıxaran boru kəmərlərinin çəkilməsinə milyardlarla vəsaiti cəlb etməyə imkan yaradıb.

"Bu, həqiqətən böyük səylər diplomatiya, siyasi münasibət, qonşularla yaxşı münasibətlər, qonşuların qonşusu ilə əlaqələr, maliyyələşmə, yaxşı nüfuz və güclü iqtisadiyyat tələb edirdi. Beləliklə, həmin meyarlar toplusu hazırda Azərbaycana mühüm enerji təchizatçılarından birinə çevrilmək imkanı yaratdı.

Təbii qaz təchizatı ilə bağlı. Bu gün Azərbaycan boru kəməri ilə qaz təchizatının coğrafiyası baxımından birinci yerdədir. Biz təbii qazı 16 ölkəyə nəql edirik. Onların sayı ilbəil artır və artmaqda davam edəcək. Neft təchizatı daha çox ölkələri əhatə edir və bu, hasilatçı, tranzit ölkələrə və istehlakçıların hamısına fayda gətirir. Beləliklə, bu, yaradılmış komanda işidir və həqiqətən, layihələrin mürəkkəb icrası, maliyyələşməsi, relyefi, qarşımızda olan müxtəlif siyasi maneələr baxımından unikaldır.

Azərbaycanın iqtisadi inkişafı müsbətdir və qeyd etdiyim kimi, iqtisadiyyat sabitdir. Biz dəyəri 350 milyard ABŞ dollarından çox olan birbaşa investisiyaları, onların yarısını son 20 ildə demək olar ki, xarici mənbələrdən cəlb edə bilmişik. Bizim investisiya planlarımız davam edir, çünki bu gün investorlar sabit yerlərin axtarışındadır. Əfsuslar olsun ki, vaxt ötdükcə sabit yerlərin sayı artmır. Təəssüf ki, bu, günümüzün reallığıdır. Buna görə yaxşı investisiya mühiti, investisiyaların qorunması, qanunvericilik bazası və artıq həyata keçirilmiş layihələr bizə təkcə enerji sahəsinə yox, həm də qeyri-enerji sahəsinə investisiyaları cəlb etməyə imkan verir ki, bu da, yeri gəlmişkən, bizim prioritetlərimizdən biridir. Biz bu barədə 16 il bundan əvvəl Bakıda keçirilmiş İslam İnkişaf Bankının İllik Toplantısında danışdıq və o vaxtdan bəri biz dəyişmişik.

Bu gün qeyri-neft və qaz sektorunun ÜDM-də payı 70 faizdən artıqdır ki, bu da özlüyündə əlamətdar bir nailiyyətdir. Lakin biz ixracımızda neft, qaz və qeyri-neft və qaz sektorunun balansının dəyişdirilməsini davam etdirmək üçün gərgin çalışmalıyıq. Bu gün ixracımızın mütləq əksəriyyətini enerji resursları təşkil edir. Beləliklə, biz vəziyyəti dəyişmək üçün çox gərgin çalışırıq və bunun üçün əlbəttə ki, bizə daha çox islahatlar, daha çox investisiyalar və yeni bazarlar lazımdır və bu da problemdir. Çünki bazarlar uğrunda, mən belə deyərdim, çox fəal mübarizə gedir. Beləliklə, iqtisadiyyatın şaxələndirilməsi artıq reallıqdır, lakin biz, əlbəttə ki, davam etməliyik".

Daha sonra İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov çıxış edərək, Azərbaycanın son illərdə həyata keçirdiyi iqtisadi inkişaf strategiyası və beynəlxalq tərəfdaşlıqların bu prosesdə rolundan, habelə ölkəmizin bank sektoru və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığının genişlənməsinə, xüsusilə Azərbaycan-Ərəb Koordinasiya Qrupu çərçivəsində qurulan tərəfdaşlıqların iri infrastruktur layihələrinin - boru kəmərlərinin, dəmir yollarının və avtomobil yollarının maliyyələşdirilməsinə verdiyi töhfədən danışıblar. Daha sonra tədbirdə "Qarabağ suvarma kanalının yenidən qurulması" layihəsi üzrə Çərçivə (Kredit) sazişi, "Qarabağ suvarma kanalının yenidən qurulması" layihəsi uzrə Qrant Sazisi və "Azərbaycan Respublikasının Iqtisadiyyat Nazirliyi və islam inkişaf Bankı arasında Azərbaycan Respublikası üçün Üzv Ölkə Tərəfdaşlıq Strategiyasının hazırlanmasına dair Anlaşma Memorandumu" imzalandı.

# Prezident İlham Əliyev ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvünü qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamadeni qəbul edib. Prezident İlham Əliyev Donald Trampın ikinci dəfə hakimiyyətə gəlişindən sonra Azərbaycan-ABŞ əlaqələrinin uğurla inkişaf etdiyini vurğuladı.***

ABŞ Prezidenti ilə şəxsi münasibətlərinin yüksək səviyyədə olduğunu deyən dövlətimizin başçısı Birləşmiş Ştatlara səfərlərini və Donald Trampla görüşlərini, həmçinin Vitse-prezident Cey. Di. Vensin ölkəmizə səfərini məmnunluqla xatırladı, "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasını münasibətlərimizin genişləndirilməsi baxımından tarixi rola malik olduğunu qeyd etdi. Söhbət zamanı Abraham Hamadenin ABŞ Konqresində Azadlığa Dəstək Aktına 907-ci düzəlişin ləğvi ilə bağlı irəli sürülmüş qanun layihəsinə həmmüəllif olmasının əhəmiyyətinə toxunuldu. Prezident İlham Əliyev Abraham Hamadenin ölkəmizə səfərinin uğurlu olacağına əminliyini bildirdi. Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edən qonaq ölkəmizin coğrafi baxımdan çox nadir bir məkanda yerləşdiyini dedi. O, həmçinin Azərbaycanda UFC və Formula 1 kimi mötəbər idman yarışlarının keçirildiyini də vurğuladı.

Söhbət zamanı Azərbaycan və ABŞ prezidentlərinin strateji tərəfdaşlığımızın dərinləşdirilməsi istiqamətində səylərinə toxunularaq, hər iki liderin dövlətlərarası münasibətlərimizin inkişafına böyük önəm verdikləri qeyd olundu.

Donald Trampın Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasında rolu xüsusi vurğulandı, regional nəqliyyat bağlantılarının inkişafı baxımından TRIPP dəhlizinin yaradacağı imkanlara toxunuldu. Görüşdə ölkəmizlə ABŞ Konqresi arasında dialoqun möhkəmləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı, iqtisadi-ticari, sərmayə, enerji, təhlükəsizlik, bağlantılar, texnologiya və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi, Azərbaycan-ABŞ tərəfdaşlığının perspektivləri müzakirə olundu.

# Regional sabitliyin modeli: Bakıdan Aşqabada uzanan körpü



*Türk dünyasının iki qonşu ölkəsi arasında ilk rəsmi diplomatik münasibətlərinin tarixi 1992-ci ildə qurulsa da qardaşlığın tarixi daha qədimdir. Rəsmi diplomatik əlaqələrin qurulmasından əvvəl, Azərbaycan və Türkmənistan imperiyanın tərkibində olarkən Xəzəryanı qonşuluq, qədim tarixi-mədəni köklərin eyniliyi hər iki ölkəni doğmalaşdıran səbəblərdən idi.*

Uzun illər ərzində bu dostluq, qardaşlıq münasibətləri ciddi tərəfdaşlıq sahəsində də bərkidi. İki ölkənin dostluğunu "Dostluq" yatağı təsdiqlədi, uzun illər mübahisəli qalan Xəzərdəki yataq üzrə 2021-ci ildə müştərək kəşfiyyat və işlənilmə haqqında tarixi Memorandum imzalandı. Türkmənistan mavi qazının Azərbaycan ərazisindən keçməklə Türkiyə və Avropa bazarlarına nəqlini gerçəkləşdirən Trans-Xəzər layihəsi, üçtərəfli (İran vasitəsilə) qaz mübadiləsi razılaşmaları enerji sahəsindəki tərəfdaşlığımızı da gücləndirdi. İndi Azərbaycan və Türkmənistan sadəcə eyni kökə malik qardaş ölkələr deyil, həm də eyni maraqlara və ortaq razılaşmalara sahib tərəfdaşlardır.

Azərbaycan və Türkmənistan arasındakı hazırkı münasibətlər hər iki ölkə tarixinin ən yüksək etimad və sürətli yüksəliş dövrüdür desək, yanılmarıq. İndii iki ölkə arasındakı əlaqələr sadə qonşuluq müstəvisindən tam regional strateji tərəfdaşlıq və qardaşlıq səviyyəsinə qədər yüksəlib. Münasibətlərin hazırkı yüksək dinamikası birbaşa dövlət başçıları səviyyəsində qurulan səmimi, etibarlı və qarşılıqlı siyasi dialoqa əsaslanır.

Prezident İlham Əliyev və Türkmənistan Prezidenti Serdar Berdiməhəmmədov, eləcə də türkmən xalqının milli lideri Qurbangulu Berdiməhəmmədov arasındakı müntəzəm görüşlər, səmimi dostluq münasibətləri əlaqələrin gələcəkdəki şəffaf yol xəritəsini də müəyyən edir. Planlaşdırılan yeni sazişlər iki ölkənin siyasi iradəsinin növbəti təzahürüdür. İmzalanan sənədlər, keçirilən görüşlər, qarşılıqlı səfərlər sübut edir ki, bu iki ölkənin həm tərəfdaşlıq, həm də qardaşlıq münasibətlərinin çox möhkəm özülləri var.

Ötən ilin payızında Füzuli şəhərində Türkmənistan tərəfindən Azərbaycan xalqına hədiyyə olunmuş məscidin təməlinin atılması, türkmən xalqının milli lideri Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfər etməsi, işğaldan azad olunmuş əraziləri ziyarət etməsi, Füzuli şəhərinin Türkmənistanın Arxadağ şəhəri ilə qardaş şəhər elan edilməsi hər iki xalq arasındakı doğmalığın nümunəsidir.

Yeri gəlmişkən, Türkmənistan Prezidenti Serdar Berdiməhəmmədovun yaxın günlərdə Azərbaycana rəsmi səfəri planlaşdırılır. Yüksək səviyyəli görüş çərçivəsində iki ölkə arasında strateji tərəfdaşlığı möhkəmləndirəcək bir sıra mühüm ikitərəfli sənədlərin və sazişlərin imzalanması gözlənilir. Liderlərin görüşündə energetika əməkdaşlığı, Trans-Xəzər tranzit-logistika imkanlarının genişləndirilməsi və Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya məsələlərinin müzakirəsinin ön planda olacağı proqnozlaşdırılır. Beynəlxalq arenada, xüsusilə Birləşmiş Millətlər Təşkilatında, İslam Əməkdaşlıq Təşkilatında, Müstəqil Dövlətlər Birliyində və İqtisadi Əməkdaşlıq Təşkilatında hər iki ölkə bir-birinin suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyirlər. Bakı və Aşqabad regionda kənar güclərin deyil, məhz bölgə dövlətlərinin sülhün qarantı olması prinsipini rəhbər tutaraq sabitliyi təmin edirlər.

Hazırda Azərbaycan-Türkmənistan münasibətləri təkcə iki ölkənin deyil, bütövlükdə Türk dünyasının inteqrasiyasına və Xəzər hövzəsinin təhlükəsizliyinə xidmət edən ən etibarlı tərəfdaşlıq modellərindən biridir. Azərbaycan və Türkmənistanın formalaşdırdığı bu etibarlı strateji ittifaq təkcə iki ölkənin deyil, bütövlükdə Avrasiya regionunun iqtisadi və təhlükəsizlik mənzərəsini gücləndirir.

**Lalə Mehralı**

# İlham Əliyev Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərindən ibarət nümayəndə heyətini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərindən ibarət nümayəndə heyətini qəbul edib.***

Nümayəndə heyətinə İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir, Beynəlxalq İnkişaf üzrə OPEC Fondunun prezidenti Əbdülhəmid Əl-Xəlifə, Afrikada İqtisadi İnkişaf üzrə Ərəb Bankının prezidenti Abdulla Xəlil Əl-Müseybih, Ərəb Valyuta Fondunun Baş direktoru və İdarə Heyətinin sədri Fəhad Əl-Türki, Səudiyyə İnkişaf Fondunun Baş icraçı direktoru Sultan Əbdürrəhman Əl-Mərşad, Ərəb Körfəzi İnkişaf Proqramının icraçı direktoru Həmmam bin Nasir bin Cureyd, Küveyt Ərəb İqtisadi İnkişaf Fondunun əməliyyat direktoru Tamer Əl-Failakavi, Səudiyyə Ərəbistanı Krallığının maliyyə naziri Məhəmməd Abdulla Əl-Cadan, Küveyt Dövlətinin maliyyə naziri Yaqub Ər-Rifai, Qətər Dövlətinin maliyyə naziri Əli Əhməd Əl-Kuvari və Birləşmiş Ərəb Əmirlikləri Maliyyə Nazirliyinin beynəlxalq maliyyə əlaqələri üzrə nazir müavini Əliabdulla Şərəfi daxildir.

Dövlətimizin başçısı Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərinin İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarında iştirakının əhəmiyyətini qeyd etdi. Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında fəal əməkdaşlığın qurulduğunu deyən Prezident İlham Əliyev bir çox layihələrin icra mərhələsində olduğunu vurğuladı. Dövlətimizin başçısı imzalanacaq sənədlərin önəminə də toxundu.

Ölkəmizdə olmaqdan məmnunluğunu bildirən İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir qəbula görə nümayəndə heyəti adından Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi. Qonaq rəhbərlik etdiyi qurumla Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsinə dövlətimizin başçısının göstərdiyi dəstəyi yüksək qiymətləndirdi.

Söhbət zamanı Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında tərəfdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı, ölkəmizdə mövcud olan əlverişli investisiya mühitinin Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlarla birgə layihələr həyata keçirmək baxımından əhəmiyyəti qeyd edildi.

Görüşdən sonra Azərbaycan Prezidentinin iştirakı ilə "Sumqayıt Yeni Tullantı Sutəmizləyici Qurğunun tikintisi" layihəsi üzrə Kredit sazişi imzalandı. Həmçinin imzalanmış "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və Ərəb Koordinasiya Qrupu üzvləri arasında "Abşeron yarımadasında 33 yaşayış məntəqəsinin su təchizatı və kanalizasiya sistemlərinin tikintisi layihəsi üzrə əməkdaşlığın genişləndirilməsinə dair Anlaşma Memorandumu" mübadilə olundu. Daha sonra dövlətimizin başçısı İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casirə "Dostluq" ordenini təqdim etdi. Məhəmməd Süleyman Əl-Casir onun fəaliyyətinə verdiyi yüksək qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Qeyd edək ki, Məhəmməd Süleyman Əl-Casir ölkəmizlə İslam İnkişaf Bankı arasında əməkdaşlığın inkişafına verdiyi töhfəyə görə Prezident İlham Əliyevin Sərəncamına əsasən bu ordenlə təltif olunub.





# Tahir Budaqov ilə Tun Vathana arasında görüş keçirilib





***İyunun 17-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Kamboca Xalq Partiyası Mərkəzi Komitəsi Daimi Komitəsinin üzvü, Kamboca Krallığı Senatının ikinci vitse-prezidenti Tun Vathananın rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.***

Görüşdə Azərbaycan ilə Kamboca arasında münasibətlərin dostluq və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əsaslandığı, fəal siyasi dialoq şəraitində müxtəlif sahələrdə əlaqələrin inkişafı üçün mühüm potensialın olduğu qeyd edilib.

Dövlət başçılarının siyasi iradəsi nəticəsində iki ölkənin beynəlxalq müstəvidə, o cümlədən BMT, Qoşulmama Hərəkatı kimi təşkilatlar səviyyəsində bir-birinin maraqlarını müdafiə etdikləri, ərazi bütövlüyü və suverenliyinə birmənalı dəstək verdikləri qeyd olunub.

Azərbaycan-Kamboca əlaqələrinin vacib tərkib hissəsi olaraq YAP ilə Kamboca Xalq Partiyası arasında əməkdaşlığın, həmçinin qanunverici orqanlarda dostluq qruplarının fəaliyyətinin önəmi vurğulanıb.

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin 2023-cü ilin iyul ayında Kambocaya səfəri çərçivəsində Baş nazir, Kamboca Xalq Partiyasının prezidenti Hun Sen ilə görüşü və parlament seçkilərini müşahidə etməsi, həmçinin bu ölkənin nümayəndə heyətinin ötən ilin oktyabr ayında Bakıda keçirilən ICAPP Mədəniyyət Şurasının 4-cü iclasında iştirakı məmnunluqla xatırlanıb.

Tun Vathana YAP nümayəndə heyətinin gələn il Kambocada keçiriləcək yerli seçkilərdə müşahidəçi qismində iştirakından məmnun olacaqlarını diqqətə çatdırıb.

Qarşılıqlı səfərlərin önəminə toxunularaq cari ilin iyun ayının 15-də YAP-ın təşkilatçılığı ilə "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda Şuşa şəhərində keçirilmiş beynəlxalq konfransın həm qlobal gündəliyin aktual məsələlərinin müzakirəsi, həm də partiyalarımız və ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyətə malik olduğu bildirilib.

Tun Vathana ölkəmizə səfəri çərçivəsində Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın sürətli inkişafının və işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işlərinin şahidi olduğunu söyləyib. O, beynəlxalq konfransın yüksək səviyyədə təşkilinə və səmimi qonaqpərvərliyə görə Yeni Azərbaycan Partiyasına təşəkkür məktubunu təqdim edib.

Tahir Budaqov isə dəvəti qəbul edərək konfransda iştirakına və ölkəmiz haqqında xoş sözlərinə görə qarşı tərəfə minnətdarlığını ifadə edib. O, YAP ilə Kamboca Xalq Partiyası arasında əməkdaşlığın daha da inkişaf edəcəyinə və ölkələrarası münasibətlərin möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini bildirib.

YAP ilə Kamboca Xalq Partiyası arasında əməkdaşlıq sazişinin imzalanması perspektivlərinin də müzakirə olunduğu görüşdə qarşılıqlı maraq doğuran digər bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına

İlk növbədə, "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda konfransında iştirak etmək imkanına görə Sizə, həmkarlarınıza və Yeni Azərbaycan Partiyasına Kamboca nümayəndə heyəti adından dərin minnətdarlığımızı bildirmək istəyirəm. Konfrans sülh quruculuğu, transsərhəd iqtisadi əməkdaşlıq və Kamboca ilə Tailand arasında xmer məbədləri və sərhədyanı ərazilərə sahibliklə bağlı mübahisələrə dair fikir mübadiləsi aparmaq üçün dəyərli fürsət yaratdı. Həmçinin konfransın rahat və yüksək səmərəliliklə keçməsini təmin edən komandanızın nümayiş etdirdiyi peşəkarlığı və koordinasiyanı da qeyd etmək istərdim.

Azərbaycanda olduğum müddətdə Prezident İlham Əliyevin rəhbərliyi altında ölkənin dayanıqlı inkişafını heyranlıqla müşahidə etdim. Qarabağda qısa müddət ərzində əldə olunmuş sürətli irəliləyişi xüsusilə qeyd etmək lazımdır. Son illərdə sülhə nail olunması təkcə Qarabağ əhalisi və bütövlükdə Azərbaycan xalqı üçün deyil, həm də daha geniş region və beynəlxalq ictimaiyyət üçün əhəmiyyətlidir.

Kamboca Xalq Partiyasının Sədri Samdek Hun Sen Azərbaycanla Kamboca arasında dostluq və tərəfdaşlığa böyük dəyər verir və işbirliyimizi, xüsusən də Yeni Azərbaycan Partiyası ilə Kamboca Xalq Partiyası arasında daha sıx əməkdaşlıq yolu ilə gücləndirmək üçün əlimdən gələni edəcəyəm. Partiyalarımız arasında daha böyük siyasi etimad və qarşılıqlı dəstəyin təşviqi üçün sizinlə və həmkarlarınızla sıx işləməyi səbirsizliklə gözləyirəm. İnanıram ki, Azərbaycan və Kamboca sülhün müdafiəsi və beynəlxalq hüquqa tam hörmətlə yanaşılması məsələlərində həmrəyliyi davam etdirəcəkdir.

Dəstəyinizə və nümayəndə heyətimizə ayırdığınız vaxta görə səmimi təşəkkürümü bildirirəm. Xalqlarımızın əmin-amanlığı və rifahı naminə dostluq və tərəfdaşlığın davam etdirilməsini və möhkəmlənməsini səmimi-qəlbdən arzulayıram.

Hörmətlə,
Tun Vathana
Kamboca Xalq Partiyası Mərkəzi Komitəsinin Daimi Komitəsinin üzvü,
Kamboca Krallığı Senatının ikinci vitse-prezidenti

# Barıt çəlləyi üzərində memorandum...



## Şərqşünas Fərhad İbrahimov ABŞ-İran Sazişləri haqqında yazır

AKTUAL

***ABŞ tərəfindən dərc edilmiş ABŞ-İran memorandumunun müddəaları ilk baxışdan demək olar ki, nümunəvi görünür. Tərəflər bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyi öhdələrinə götürürlər. Vaşinqton sanksiyaların qaldırılması istiqamətində irəliləməlidir. İranın nüvə materialları məsələsi MAQATE-nin nəzarəti altında həll edilməli və Tehran öz növbəsində Hörmüz boğazından tranzit üçün gəmilərdən pul almamağı öhdəsinə götürür. Kağız üzərində bu, böhranın sadəcə dondurulmaması, əksinə idarəolunan diplomatik çərçivəyə yönəldilməsi kimi nadir bir hal kimi görünür.***

Lakin, məhz bu hamarlıq narahatedici olmalıdır. İran narrativi sənədi ABŞ tərəfindən siyasi təslim olmaqdan daha çox kompromis kimi təsvir edir: Vaşinqton təzyiqi azaldır, İran dövlətçiliyinin de-fakto sabitliyini tanıyır, aktivlərin dondurulmasının aradan qaldırılması üçün yol açır, İranın iqtisadi bərpasına imkan verir və nüvə məsələsini ultimatum kimi deyil, sonrakı texniki prosedurlar məsələsi kimi saxlayır. Memorandumu təkcə bu baxımdan oxumaq Tehranın təzyiqə tam tab gətirdiyi, Amerikanın isə təhdid və zərbələrlə başlayaraq rəqibinin şərtləri üzrə danışıqlar aparmağın vacib olduğu qənaətinə gəldiyi təəssüratını yaradır.

Lakin beynəlxalq müqavilələr onların təntənəli ifadəsinə görə deyil, imzalandıqdan sonra baş verənlərə görə qiymətləndirilir. Bu mənada mövcud vəziyyət 2015-ci ili çox xatırladır. O dövrdə Birgə Hərtərəfli Fəaliyyət Planı (BHFP) da bir çoxları tərəfindən yeni bir dövrün başlanğıcı kimi qəbul edilirdi: İran qlobal iqtisadiyyata qayıdırdı, sanksiyalar rejimi tədricən ləğv edilirdi, nüvə proqramı beynəlxalq nəzarət altına alınırdı və Vaşinqton və Tehran uzun müddətdir davam edən qarşılıqlı çəkindirmə məntiqindən qurtulmaq şansı əldə edirdilər. Deyəsən, ən pisi arxada qalıb.

Sonra Donald Trampın "qara qu quşu" gəldi. Əvvəlcə İran müqaviləsi kompromis deyil, Obama administrasiyasının zəifliyinin simvolu olan bir namizəd kimi. Sonra prezident olaraq BHFP-dən çıxmağı təkcə strategiya deyil, həm də siyasi kimlik məsələsi etdi. Nəticə etibarilə, ABŞ mühüm bir presedent yaratdı: böyük bir beynəlxalq müqavilədə Amerika imzası artıq onun davamlılığına zəmanət vermir. Növbəti administrasiya əvvəlki öhdəlikləri səhv, güzəşt və ya "pis müqavilə" elan edə bilər.

Buna görə də mövcud memoranduma Amerikanın daxili siyasi dövründən kənarda baxmaq olmaz. Tramp bu gün bunu şəxsi qələbə kimi satmağa hazır olsa belə, iki ildən sonra ABŞ yeni prezidentlik dövrünə qədəm qoyacaq və ardınca xarici siyasət öhdəliklərinin yenidən qiymətləndirilməsi dövrü gələcək. Ağ Evin növbəti vəzifə sahibinin bu sənədlə Trampın özünün 2015-ci il müqaviləsi ilə etdiyini etməsi mümkündür. Üstəlik, belə bir addım artıq tabu pozuntusu kimi qəbul edilməyəcək, çünki presedent yaradılıb.

Başqa bir sual yaranır: Tramp həqiqətən də İranı maliyyə cəhətdən zənginləşdirmək üçün bütün bu anti-İran kampaniyasına başlayıbmı? Bu, şübhəli səslənir. 300 milyard dollarlıq söhbət sabah Tehrana yazılan əsl çekdən daha çox siyasi pəncərə açmaq kimi görünür. Vaşinqton və tərəfdaşlarının bəzi vəsaitlərin, əsasən də uzun müddətdir Qətər və Cənubi Koreya banklarında saxlanılan və dəfələrlə danışıqlar mövzusu olan aktivlərin dondurulmasının aradan qaldırılmasına icazə verməsi ehtimalı daha yüksəkdir. Bu, xoşməramlılıq jesti kimi təqdim edilə bilər: deyirlər ki, Amerika İranı iqtisadi cəhətdən boğmağa çalışmır, əksinə konstruktiv davranışı mükafatlandırmağa hazırdır. Lakin vəsaitlərin məqsədyönlü şəkildə dondurulmasının aradan qaldırılması ilə tək bir memorandumla aradan qaldırıla bilməyən sanksiyalar arxitekturasının tam qaldırılması arasında fərq var.

Bu məqamda bütün bu məsələdə əsas qıcıqlandırıcı Hörmüz boğazı və ya hətta sanksiyalar deyil, nüvə proqramıdır. Tramp İranın nüvə imkanlarını məhdudlaşdırmaq tələbindən əl çəkməyib. Üstəlik, onun üçün bu, şəxsi siyasi nüfuz məsələsidir: o, müharibəni və təzyiqi İrana Tehranın uğrunda mübarizə apardığı hər şeyi saxlamağa imkan verəcək bir razılaşma ilə bitirə bilməz. Lakin İranın da məğlub tərəf kimi davranmaq niyyəti yoxdur və artıq özünü qalib kimi təqdim edir. Tehran sövdələşmə aparacaq, işləri uzadacaq, sözlər üzərində mübahisə edəcək, zəmanətlər tələb edəcək, dinc nüvə enerjisi hüququnda israr edəcək və ölkə daxilində alçaldıcı kimi qəbul edilə biləcək hər hansı addımı minimuma endirəcək.

Əsas risk də elə buradan qaynaqlanır: nüvə yolu yenidən çıxılmaz vəziyyətə düşərsə, memorandumun bütün arxitekturası dağıla bilər və buna görə də hərbi məntiq tez bir zamanda geri qayıdacaq. İran müqavimət göstərərsə və çox güman ki, belə də olacaqsa, Vaşinqton yenidən məcburiyyətdən danışmağa başlayacaq. Əvvəlcə qaldırılmış sanksiyaları bərpa etməklə, sonra isə zərbələrdən istifadə etməklə. Bu mənada memorandum hərbi variantı aradan qaldırmır, yalnız müvəqqəti olaraq onu ön plandan çıxarır.

İsrail faktoru da nəzərə alınmalıdır. Benyamin Netanyahunun ABŞ-İran yaxınlaşmasını sakitcə müşahidə edəcəyi fikri sadəlövh görünür. İsrail üçün İranın nüvə proqramı mücərrəd danışıqlar mövzusu deyil, milli təhlükəsizlik məsələsidir. İrana nüvə infrastrukturunun əhəmiyyətli bir hissəsini saxlamağa imkan verən hər hansı bir razılaşma İsraildə şiddətli müqavimətə səbəb olacaq. Vaşinqton eskalasiyanı yavaşlatmaq istəsə belə, İsrail siyasi, kəşfiyyat və ya hərbi olsun, öz böhran dinamikasını yaratmağa qadirdir.

Buna görə də, mövcud memorandum münaqişənin sonu deyil, onun inkişafında fasilədir. Onun müddəaları cəlbedici səslənir və həqiqətən ehtiyatlı nikbinlik yarada bilər. Lakin onların tonu etibarın mümkün olmadığı və kompromissin demək olar ki, həmişə yeni bir münaqişə mərhələsindən əvvəl müvəqqəti fasilə kimi qəbul edildiyi bir bölgə üçün çox şirindir. Trampın ətrafındakı "göyərçinlərin" qələbəsi, onun vitse-prezidenti J.D. Vance ilə müvəqqəti olaraq əlaqələndirilən qələbəsi müvəqqəti ola bilər. İndi onlar memorandumu bir razılaşma yolu ilə güc nümayişi kimi satmalıdırlar: deyirlər ki, Amerika Hörmüz boğazının açılmasını təmin edib, müharibəni dayandırıb və nüvə məsələsi üzərində nəzarəti saxlayıb. Lakin ABŞ-ın Milli Təhlükəsizlik Müşaviri və Dövlət Katibi Marko Rubionun rəhbərlik etdiyi "qırğılar" yoxa çıxmayıb. Onlar İranın hər bir hərəkətini yaxından izləyəcək və hər hansı bir gecikmədən, hər hansı bir qeyri-müəyyənlikdən, BAEA ilə hər hansı bir mübahisədən Tehranın yenidən vaxt qazandığının sübutu kimi istifadə edəcəklər.

Hazırkı memorandumun zəifliyi də elə buradadır. O, çox tez vəd verir, lakin əsas suala cavab vermir: niyə bu dəfə 2015-2018-ci illərdən fərqli olmalıdır? Hələlik cavab yoxdur. Buna görə də İranın qələbəsi və ya ABŞ-ın təslim olması barədə danışmaq hələ tezdir. Əksinə, həm ABŞ, həm də İsrailin artıq gələcək böhranın öz versiyasını hazırladığı kövrək bir razılaşmadan danışırıq. Tehran tanınma və təzyiqin aradan qaldırılmasını təmin etdiyini iddia edəcək. Vaşinqton isə İranı Hörmüz boğazını açmağa və nüvə ambisiyalarını məhdudlaşdırmağa məcbur etdiyini iddia edəcək. İsrail isə öz növbəsində heç bir sənədləşmənin təhlükəni aradan qaldıra bilməyəcəyini iddia edəcək. Növbəti Amerika prezidenti isə başqasının imzasının onu heç nəyə bağlamadığına yenidən qərar verə bilər.

Deməli, memorandum həqiqətən cəlbedici görünür. Lakin Yaxın Şərqdə gözəl mətnlər məhz problemin yalnız müvəqqəti olaraq formasını dəyişdiyi həll olunmuş problem illüziyası yaratdığı üçün təhlükəlidir.

***Hazırladı: V.VƏLİLİ***

# "Azərbaycan mediası yeni inkişaf dövrünü yaşayır"



***"Azərbaycanda dövlət tərəfindən mediaya diqqət və qayğı hər zaman yüksək səviyyədə olub. İstər Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə, istərsə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prezidentliyi illərində jurnalistlərə və media sahəsinə xüsusi diqqət göstərilib". Bunu SİA-ya açıqlamasında Mətbuat Şurası İdarə Heyətinin üzvü, Azxeber.com informasiya portalının baş redaktoru Hacıbəy Heydərli deyib.***

Onun sözlərinə görə, Cənab Prezident İlham Əliyevin "Jurnalistlər mənim köməkçilərimdir" ifadəsi Azərbaycan mediasına verilən dəyərin və etimadın ən bariz nümunələrindən biridir: "Bu yanaşma media nümayəndələrinin cəmiyyət və dövlət həyatındakı roluna verilən yüksək qiymətin göstəricisidir. 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan mediası informasiya cəbhəsində ön sıralarda yer aldı. Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, dezinformasiyaya qarşı mübarizə və operativ informasiya təminatı sahəsində jurnalistlərimiz mühüm fəaliyyət göstərdilər. Dövlətimiz də bu fəaliyyəti hər zaman yüksək qiymətləndirdi. Vətən müharibəsindən sonra digər sahələrdə olduğu kimi, media sektorunda da mühüm islahatlar həyata keçirildi. Medianın İnkişafı Agentliyinin yaradılması, media reyestrinin formalaşdırılması, media subyektlərinin fəaliyyətinin tənzimlənməsi və peşəkarlığın artırılmasına yönəlmiş layihələr dövlətin bu sahədə şəffaflıq və inkişaf siyasətinin göstəricisidir.

MÖVQE

Bu islahatlar nəticəsində uzun illər müzakirə olunan "Kim jurnalistdir?" sualına daha aydın cavab verildi. Media reyestrinin yaradılması, media subyektləri üçün peşə standartlarının müəyyənləşdirilməsi və məsuliyyət mexanizmlərinin tətbiqi sahədə keyfiyyətin yüksəlməsinə xidmət etdi. Eyni zamanda, əvvəlki dövrlərdə geniş yayılmış sadə məlumatların köçürülməsi üzərində qurulan fəaliyyət tədricən öz yerini daha peşəkar və orijinal jurnalistikaya verməyə başladı. Bu gün Medianın İnkişafı Agentliyi tərəfindən həyata keçirilən layihələr, xarici ekspertlərin iştirakı ilə təşkil olunan təlimlər, gənc jurnalistlərin peşəkar inkişaf proqramlarına cəlb edilməsi və media savadlılığının artırılması istiqamətində görülən işlər dövlətin mediaya göstərdiyi diqqət və qayğının davamlı xarakter daşıdığını göstərir.

Hesab edirəm ki, qarşıdakı dövrdə Azərbaycan jurnalistlərinin üzərinə düşən əsas vəzifələrdən biri beynəlxalq media ilə əməkdaşlığın genişləndirilməsi, dezinformasiya və saxta xəbərlərə qarşı mübarizənin gücləndirilməsi, media savadlılığının artırılması və peşəkar jurnalistikanın inkişaf etdirilməsidir. Media qurumları və jurnalistlər bu istiqamətdə fəaliyyətlərini davam etdirməli, dövlətin media siyasətinə öz töhfələrini verməli və cəmiyyətə obyektiv, dəqiq və operativ informasiya çatdırmaq missiyasını uğurla yerinə yetirməlidirlər. Məhz bu yanaşma Azərbaycan mediasının gələcək inkişafının əsas təminatlarından biri olacaqdır".

***Günel Fərzəliyeva***

# İlon Mask bəşəriyyət tarixində ilk trilyonçu necə oldu?



*İlon Mask, kosmik texnologiya şirkəti SpaceX-in birjadakı tarixi debütü (IPO) sayəsində rəsmən dünyanın ilk trilyonçusu olub.12 iyun 2026-cı ildə Nasdaq birjasında baş tutan bu ilkin kütləvi yerləşdirmə dünya maliyyə tarixinin ən böyük İPO-su (Initial Public Offering – İlkin Kütləvi Yerləşdirmə) kimi qeydə alınıb. Səhmlərin kəskin bahalaşması ilə SpaceX-in ümumi bazar dəyəri 2.2 trilyon dollara çatıb.*

SpaceX şirkəti hər biri 135 dollardan olmaqla 555 mindən çox səhm buraxaraq ilkin olaraq 75 milyard dollar kapital toplamağı hədəfləmişdi. Lakin investorların həddindən artıq marağı nəticəsində səhmlər Nasdaq birjasında SPCX indeksi altında 150 dollardan ticarətə başlayıb. Gün ərzində təxminən %19-25 aralığında dəyər qazanan səhmlər günü 160.95 dollar (bazar bağlandıqdan sonra isə 166 dollar) səviyyəsində tamamlayıb.Ticarətin ilk günündə 500 milyondan çox səhm əl dəyişdirib.

Bu misilsiz aktivlik Robinhood və digər məşhur ticarət platformalarında rekord trafik səbəbindən müvəqqəti texniki gecikmələrə və dondurmalara yol açıb. Maliyyə analitikləri bunu birjanın müşahidə etdiyi ən aqressiv debüt adlandırırlar.

Forbes və Bloomberg Milyarderlər İndeksinin son hesabatlarına görə, İlon Mask SpaceX şirkətinin təxminən %38-42 aralığında payına sahibdir. IPO-nun tamamlanması ilə Maskın yalnız bu şirkətdəki payının xalis dəyəri 715 ilə 866 milyard dollar arasında bir rəqəmə yüksəlib.

Maskın digər nəhəng aktivləri — Tesla (%12 pay), X (keçmiş Twitter), xAI süni intellekt şirkəti, Neuralink və The Boring Company-dəki payları da bura əlavə edildikdə, onun ümumi xalis sərvəti rəsmən 1.1 trilyon dolları ötüb. Beləliklə, o, bəşəriyyət tarixində rəsmi olaraq ilk trilyonçu statusunu qazanıb.

Hazırda Maskın sərvəti dünyanın ikinci ən varlı şəxsindən (təxminən 300 milyard dollar) 3 dəfədən də çoxdur. İlon Mask Mükafatı və Mars Missiyası Uoll-Strit (Wall Street) ekspertləri qeyd edirlər ki, investorlar ənənəvi gəlir-xərc hesabatlarından daha çox İlon Maskın şəxsi vizyonuna sərmayə qoyurlar.

Maliyyə dünyasında bu fenomen 'Elon Musk premium' (İlon Mask mükafatı) adlandırılır. Çünki SpaceX-in tərkibinə hazırda böyük gəlir gətirən Starlink peyk interneti daxil olsa da, hələlik mənfəəti olmayan xAI süni intellekt layihəsi və böyük xərc tələb edən raket sınaqları da daxildir.

Şirkətin birja üçün hazırladığı rəsmi bəyanatda (prospektində) açıq şəkildə qeyd olunub ki, bu IPO-nun əsas məqsədi gəlir əldə etməkdən ziyadə, insanlığı çoxplanetli növə çevirmək, Ay və Marsda müstəqil kosmik iqtisadiyyat qurmaq üçün lazım olan nəhəng kapitalı toplamaqdır. Mask bu addımla kosmosun fəthini tamamilə özəl sektorun maliyyələşdirdiyi bir layihəyə çevirib.

Qeyd edək ki, 2025-ci il İlon Maskın sərvəti üçün sürətli artım dövrü olmuşdu. Forbes və Bloomberg agentliklərinin 31 dekabr 2025-ci il tarixli hesabatına əsasən, 2025-ci ildə İlon Maskın varidatı 726 milyard dollar təşkil edirdi. Həmin dövrdə də o, dünyanın ən varlı insanı statusunu qoruyurdu və sərvəti Belçika, Argentina kimi ölkələrin ÜDM-indən daha böyük idi.

2025-ci il ərzində dərc olunan hesabatlarda Maskın sərvətinin artım xronologiyası hətta aylara görə düzülmüşdü: may ayında sərvəti təxminən 422.7 milyard dollar, oktyabrda isə tarixdə ilk dəfə yarım trilyon (500 milyard dollar) sərhədini keçən ilk insan oldu.

2025-ci ilin dekabrının ortalarında SpaceX-in daxili səhm satışı ilə şirkətin dəyəri 800 milyard dollara çatdı. Bunun ardınca Delaver Ali Məhkəməsi Maskın Tesladakı ləğv edilmiş 139 milyard dollarlıq səhm paketini ona geri qaytardı. Bu iki mühüm hadisə nəticəsində onun sərvəti ötən ilin sonunda rekord vuraraq 726-752 milyard dollar aralığına yüksəldi. Bu da öz növbəsində Maskın bu ilin ilk yarısında ötən ilki 700 milyard dolları artıraraq trilyonçu olmağa təkan verdi.

**Lalə Mehralı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# Müstəqilliyimizin memarı

***Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun – Milli Qurtuluş Günüdür. Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan Heydər Əliyevdir. Heydər Əliyevin adı tariximizə həm də böyük xilaskar kimi düşüb.***

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən ovaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Ümummilli lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu belalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Əslində, bu, bütün xalqın ürəyinin səsi idi. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi. Beləliklə, 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü.

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", – deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz". Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu.

Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Həmin il "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi.

Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu daha da artır. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk oldu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd edilir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir.

Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev müqəddəs ata vəsiyyətini yerinə yetirərək otuz ilə yaxın düşmən tapdağı altında qalmış torpaqlarımızı işğaldan azad etdi, şanlı Azərbaycan bayrağını vətənimizin qürur simvolu olan Şuşada dalğalandırdı.

Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək.



*AKİF RƏFİYEV,*
*Binəqədi Rayon Ağsaqqallar Şurasının sədri*

SON SƏHİFƏ

SƏS

19 iyun
2026-cı il

# Bazar səbətində sağlam qidalanma

***Son illərdə ərzaq qiymətlərinin artması bir çox ailələri daha qənaətli alış-veriş etməyə məcbur edir. Bununla yanaşı, "sağlam qidalanmaq bahalıdır" fikri də geniş yayılıb. Halbuki mütəxəssislər hesab edirlər ki, düzgün planlaşdırma ilə həm sağlam, həm də büdcəyə uyğun qidalanmaq mümkündür. Əsas məsələ bahalı məhsullar almaq deyil, qida dəyəri yüksək olan məhsulları düzgün seçməkdir. Sağlam qidalanma niyə vacibdir? SİA mövzu ilə bağlı araşdırma edib.***



### Büdcəyə uyğun və faydalı məhsulları necə seçmək olar?

Sağlam qidalanma orqanizmin enerji ehtiyacını qarşılayır, immun sistemini gücləndirir, ürək-damar xəstəlikləri, piylənmə və diabet kimi problemlərin riskini azaldır. Dünya təcrübəsi göstərir ki, qidalanma vərdişləri insanların ümumi sağlamlığına təsir edən ən mühüm amillərdən biridir. Lakin bir çox ailə alış-veriş zamanı məhsulun qida dəyərindən çox qiymətinə və ya reklamına diqqət yetirir. Nəticədə səbətə daxil olan bəzi məhsullar həm bahalı olur, həm də sağlamlıq baxımından gözlənilən faydanı vermir.

### Alış-verişə siyahı ilə başlayın

Araşdırmalar göstərir ki, əvvəlcədən hazırlanmış siyahı ilə alış-veriş edən insanlar daha az lazımsız məhsul alırlar.

**Marketə və ya bazara getməzdən əvvəl:**

* Həftəlik yemək planı hazırlayın.
* Evdə olan məhsulları yoxlayın.
* Lazım olmayan məhsulları yenidən almayın.
* Aclıq hissi ilə alış-verişə getməyin.

**Yay mövsümündə:**

* Pomidor
* Xiyar
* Badımcan
* Bibər
* Qarpız
* Yemiş
* Ərik
* Şaftalı kimi məhsullar həm qiymət, həm də vitamin baxımından sərfəlidir.

İdxal olunmuş və mövsümdənkənar məhsullar isə adətən daha bahalı olur.

### Protein mənbələrini düzgün seçin

Bir çox insan sağlam qidalanmanı yalnız bahalı ət və balıqla əlaqələndirir. Halbuki daha sərfəli alternativlər də mövcuddur.

**Büdcəyə uyğun protein mənbələri:**

* Yumurta
* Mərci
* Noxud
* Lobya
* Paxlalılar
* Toyuq əti
* Qatıq və ayran

Məsələn, bir yumurta yüksək keyfiyyətli protein mənbəyidir və bir çox bahalı qidalardan daha əlçatandır.

### Tam taxılları səbətinizə əlavə edin

Ağ undan hazırlanan məhsullarla müqayisədə tam taxıllar daha uzun müddət toxluq hissi yaradır.

**Seçimlər:**

* Yulaf
* Qarabaşaq
* Bulqur
* Qəhvəyi düyü
* Tam buğda çörəyi

Bu məhsullar qan şəkərinin daha stabil qalmasına kömək edir.

Hazır məhsullar əvəzinə təbii qidalar alın

**Marketlərdə satılan bir çox hazır məhsul:**

* Şəkər
* Duz
* Doymuş yağ
* Konservant baxımından zəngin olur.

Məsələn:

* Meyvə şirəsi əvəzinə təzə meyvə,
* Hazır souslar əvəzinə ev şəraitində hazırlanmış souslar,
* Şirin qazlı içkilər əvəzinə su və ya ayran daha faydalı seçim hesab olunur.

### Etiketləri oxumağı öyrənin

Məhsulun üzərindəki reklam yazıları həmişə onun sağlam olduğunu göstərmir.

Alış zamanı diqqət edin:

* Şəkərin miqdarına
* Duzun miqdarına
* Tərkib siyahısına
* Kalori dəyərinə

Tərkib siyahısı nə qədər qısa və aydın olarsa, məhsul bir o qədər təbii hesab olunur.

### Dondurulmuş məhsullardan çəkinməyə ehtiyac yoxdur

Bir çox insan dondurulmuş tərəvəz və meyvələri faydasız hesab edir. Halbuki müasir texnologiyalarla dondurulan məhsulların böyük hissəsində vitaminlər qorunub saxlanılır.

Bəzi hallarda:

* Dondurulmuş noxud,
* Dondurulmuş tərəvəz qarışıqları,
* Dondurulmuş ispanaq təzə məhsullardan daha sərfəli seçim ola bilər.

### İsrafı azaltmaq da qənaətdir

BMT məlumatlarına görə, dünyada istehsal olunan qidanın əhəmiyyətli hissəsi tullantıya çevrilir. Ailə büdcəsinin qorunması üçün:

* Artıq yeməkləri düzgün saxlayın;
* Məhsulları istifadə müddətinə uyğun istehlak edin;
* Lazım olduğundan çox almayın;
* Qalıq yeməklərdən yeni yeməklər hazırlayın.

### Dünyada vəziyyət necədir?

Avropa ölkələrində və Kanadada sağlam qidalanma siyasətləri getdikcə daha çox "əlçatan qidalanma" anlayışına əsaslanır. Mütəxəssislər insanlara bahalı "super qidalar" deyil, yerli və mövsümi məhsullar tövsiyə edirlər.

Sağlam qidalanmaq üçün mütləq çox pul xərcləmək lazım deyil. Düzgün planlaşdırılmış bazar səbətində mövsümi tərəvəz və meyvələr, yumurta, paxlalılar, tam taxıllar və süd məhsulları yer aldıqda həm ailə büdcəsini qorumaq, həm də orqanizmin ehtiyac duyduğu qidaları təmin etmək mümkündür. Sağlam qidalanmanın sirri bahalı məhsullarda deyil, düzgün seçim etməkdədir.

***Ayşən Vəli***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## TƏBRİK!




Bakının Xətai rayonundakı Ceyhun Həsənov adına 48 nömrəli tam orta məktəbin müəlimi İlhamə Məmmədova IV sinif şagirdi Məmmədli Gülər Elvin qızını təbrik edir, ona uzun ömür və cansağlığı arzulayır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**